(Əvvəli 5-ci səhifədə).

# Səsvermə məntəqələri seçkilərə tam hazırdır

Qəbələ 116 saylı seçki dairəsi hazırda hər cür şəraitə malik olan binada yerləşir. Buranın otaqları hamısı kifayət qədər müasir texniki avadanlıqlarla təmin olunub. Seçki məntəqələri təmir edilərək sahmana salınır, telefonlar quraşdırılıb, işıq xətləri qaydasındadır. Seçici siyahıları bir daha dəqiqləşdirilir. Seçkilərdə seçicilərin mütəşəkkil iştirakını təmin etmək məqsədilə maarifləndirmə işləri müntəzəm aparılır. Dairə üzrə bütün seçki məntəqəlrində görülən hazırlıq işləri, seçicilər arasında aparılan maarifləndirmə tədbirləri bizə deməyə əsas verir ki, hazırda seçicilərin siyasi fəallığı artmış, ruh yüksəkliyinə səbəb olmuşdur. Bu da bizdə inam yaradır ki, oktyabrın 9-da prezident seçkiləri tam demokratik, azad və şəffaf şəraitdə keçəcəkdir.

116 saylı Qəbələ Seçki Dairəsi əvvəlki seçkilərdə 51 məntəqəni əhatə edirdi. Lakin son illər seçkilərdə iştirak etmək hüququ olan vətəndaşların sayının artması səbəbindən yeni seçki məntəqələrinə ehtiyac yaranmışdır. Bu məqsədlə prezident seçkiləri ərəfəsində rayonumuzda daha 2 seçki məntəqəsi yaradılmış və səsvermə üçün lazımi şərait təmin edilmişdir. Prezident seçkilərində dairə üzrə 42.314 nəfər səs verəcəkdir. Rayon üzrə yaradılmış 53 məntəqədə seçki komissiyalarının tərkibini təmsil edənlərin hamısı təcrübəli, əksəriyyəti ali təhsilli və müxtəlifyönlü seçkilərin keçirilməsitndə iştirak etmiş adamlardır. Hər bir komissiya üzvü seçkiyə xüsusi məsuliyyətlə yanaşır və bu mühüm ölkə əhəmiyyətli siyasi prosesin tam azad və demokratik keçirilməsinin vacibliyini dərk edir.

Dairə məntəqə seçki komissiyalarının üzvləri üçün seminarların keçirilməsinə, onları təlimatlandırılmasına xüsusi əhəmiyyət verir. Bu cür tədbirlərdə komissiya üzvlərinin hüquq və vəzifələri aydınlaşdırılır, seçki ilə əlaqədər vaxtaşırı sənədlərin doldurulması qaydaları barədə təlimatı söhbətlər aparılır. Həm dairənin, həm də bütün seçki məntəqələrinin tərkibi müxtəlif siyasi partiyaların və bitərəflərin nümayəndədərinin hesabına formalaşdırılıb. Onların hansı qurumdan asılı olduğuna baxmayaraq fərq qoyulmadan hamısının fəaliyyətinə eyni şərait yaradılıb.

Seçki məntəqələrində əyani təşviqat işlərinə geniş yer verilir. Bütün məntəqələr təbliğat materialları və Azərbaycan Respublikasının Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyasının təlimatları ilə təmin olunmuşdur. Məntəqələrdə prezidentliyə namizədlərin platformalarına, portretlərinə müvafiq lövhələr ayrılıb, seçkilər haqqında müvafiq sənədlər üçün güşələr yaradılıb.

İndiyədək keçirilən seçkilərdə cəmi 5 veb-kameralar quraşdırılmışdırsa, qarşıdan gələn prezident seçkilərində məntəqələrin 11-də veb-kameralar qoyulacaqdır. Bu, səsvermə prosesinin internet vasitəsilə bütün dünyada izlənməsinə imkan yaradacaqdır.

Qeyd etmək lazımdır ki, «Sərbəst toplaşmaq haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq seçicilərlə görüşlərin keçirilməsi üçün rayon icra hakimiyyəti başçısının 5 sentyabr 2013-cü il tarixli sərəncamına əsasən açıq və qapalı yerlər müəyyən edilmişdir. Bu sərəncamda açıq yerlərin, qapalı yerlərin insanların ümumi tutumu göstərilmişdir.

Artıq, oktyabrın 9-da keçiriləcək prezident seçkilərinə hazırlığın son mərhələləridir. Prezidentliyə namizədlərin təşviqat kampaniyasına başlanmışdır. Prezidentliyə namizədlər öz seçiciləri ilə görüşür, növbəti 5 il ərzində həyata keçirəcəkləri işlərdən danışır, özlərinə səs toplamağa çalışırlar.

Bütün məntəqələrdə gəlib-gedənlər üçün istirahət yerləri, tibb otaqları, müasir avadanlıqla təmin olunan səsvermə otaqları yaradılıb. Söz yoxdur ki, hər işdə dövlətə və dövlətçiliyə sədaqətli olan qəbələlilər oktyabrın 9-da keçiriləcək prezident seçkisində mütəşəkkil surətdə iştirak edəcəklər.

**Ramiz ƏSƏDOV,**
**116 saylı Qəbələ dairə seçki komissiyasının sədri.**

*Seçkilərdən-seçkilərə*

# Düzgün siyasət, uğurlu nəticələr

Hər hansı bir mövzuya körpü salmaq üçün ilk növbədə ümummilli liderimiz, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin adını, tarixi xidmətlərini qeyd etməliyik. Çünki Azərbaycan dövlətinin qurulması, yaşaması, inkişafı, xalqın sosial rifahının yüksəlməsi, bir sözlə, məmləkətimizdə qazanılan uğurların hamısı ulu öndərimizin adı ilə bağlıdır. Təbii ki, xalq qarşısındakı xidmətlərinin müqabilində onu olduğu kimi şərh etməyə bəlkə də sözün də qüdrəti çatmaz. Belə bir deyim var: «O söz gözəldir ki, hələ deyilməyib, o kitab gözəldir ki, hələ yazılmayıb», Mən elə düşünürəm ki, ömrünü xalqına bağışlayan, xalqımızı xoşbəxt gələcəyə aparan yola işıq saçan Heydər Əliyevin həyat və fəaliyyəti milyonlarla kitaba sığa bilmədiyi kimi, onun əməyini sözlə ifadə etmək də çətindir.

Bütün ömrünü, həyatının ən mənalı illərini xalqımızın azad, xoşbəxt yaşamasına həsr edən, vətənini, torpağını canından artıq sevən Heydər Əliyev əbədiyyətə qovuşduğu anlara qədər Azərbaycanı bir an belə yaddan çıxarmadı. Onun «Mən İlham Əliyevə özüm qədər inanıram və onun gələcəyinə böyük ümidlər bəsləyirəm» deməsi də Azərbaycanın xoşbəxt gələcəyi naminə atılmış növbəti addım idi.

Sevindirici haldır ki, Heydər Əliyev məktəbinin yetirməsi olan möhtərəm Prezidentimiz İlham Əliyev onun yolunu uğurla davam etdirir. Həqiqətən, yola saldığımız son 10 il ərzində böyük dövlət xadiminin ona göstərdiyi etimadları doğrultdu. 2003-ci ilin oktyabr ayının 31-dən rəsmi prezident kimi fəaliyyətə başlayan İlham Əliyevin indiyədək gördüyü işlər bunu deməyə əsas verir. Tam məsuliyyətlə deyə bilərəm ki, cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 10 il ərzində Azərbaycan böyük inkişaf yolu keçmiş həyatın bütün sahələrini əhatə edən nəhəng quruculuq işləri geniş vüsət almış sənaye, kənd təsərrüfatı, xalq təsərrüfatının ayrı-ayrı sahələri, elm, təhsil, səhiyyə, mədəniyyət sürətli inkişaf yoluna qədəm qoydu. Görülən işlər respublikamızın hər bir vətəndaşının həyatında müsbət dönüş yaradıb. İlham Əliyev yaxşı bilirdi ki, Heydər Əliyevin yolunu, siyasətini davam etdirmədən hansısa uğur qazanmaq mümkün deyil. İlham Əliyevin bu yolu tutması xalqın ona bəslənən ümidlərini daha da artırdı. Prezidentin hər bir addımı dövlətçiliyimizin daha da möhkəmlənməsinə, xalqın həyat şəraitinin yaxşılaşmasına yönəlib. Əhalinin sosial rifahının yüksəldilməsi üçün apardığı siyasət nəticəsində son 10 ildə əhalinin gəlirləri, orta aylıq əməkhaqları və pensiyaların orta məbləği müvafiq olaraq 6,9, 6,3 və 6,4 dəfə yüksəlmişdir. Bu müddətdə yoxsulluq səviyyəsi 44,7 faizdən 5,6 faizə, işsizliyin səviyyəsi 28 faizdən 5,2 faizə enmişdir.

Sosial yönümlü siyasət son 10 illdə Azərbaycanın milli inkişaf yolunu səciyyələndirən mühüm istiqamətlərdən birinə çevrilmişdir. Dövlət başçısı insan və şəxsiyyət amilini ucaltmaqla, hər bir vətəndaşın maraqlarının dövlət üçün üstün olduğunu nümayiş etdirmişdir. Cənab İlham Əliyevin ötən hər iki seçki müddətində Prezident kimi böyük uğurlarından biri də Azərbaycan kəndinə şəhər simasının gətirilməsi olmuşdu. Çoxsaylı yaşayış məntəqələrində yeni sosial-mədəni obyektlər ən müasir tələblərə cavab verən yeni məktəblər, səhiyyə ocaqları, körpülər, yollar tikilmişdir. Hazırda Azərbaycanın bütün rayonlarında su və kanalizasiya sistemi yenidən qurulur, qazlaşdırma işi başa çatdırılır. Bütün bunlar regionlarda mənəvi abhavanın yaxşılaşmasına səbəb olmaqla, Azərbaycan insanının dövlətə, onun rəhbərinə etimadını, sevgi və rəğbətini daha da artırıb. Ötən on ildə dövlət başçısı bütün sahələrdə uğurlu islahatları həyata keçirməklə cəmiyyətdə böyük nüfuz qazanmış, ölkəmizin hər bir vətəndaşının, eləcə də 60 milyonluq xalqın prezidenti olduğunu əməli işi ilə sübuta yetirmişdir. Son illər imzalanmış məqsədyönlü fərman və sərəncamlar, qəbul edilmiş qərarlar ölkəmizin dinamik yüksəlişini təmin etmiş, yeni dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmişdir.

Hörmətli Prezidentimiz İlham Əliyevin iki prezidentlik dövründə Qəbələyə 9 dəfə səfəri rayonun hər bir sakininin qəlbində xoş ovqat yaratmışdır. Rayon camaatı hələ də dövlət başçısının bu səfərlərinin şirin təəssüratları ilə yaşayır. Rayonumuzun ən ucqar, uzaq dağ kəndlərində yaşayanların axın-axın Prezidentlə görüşə gəlmələri dövlət başçısına olan sonsuz sevgi və məhəbbətin təzahürüdür.

Cənab İlham Əliyev Qəbələyə səfərləri çərçivəsində Qəbələdə nəzərdə tutulmuş dövlət proqramlarının icrasını şəxsən nəzarətə götürdü, xüsusi əhəmiyyətli tikintilərin gedişini izlədi. Bu məqsədlə son illər ərzində Qəbələdə 50-dək mühüm xarakterli obyektlərin açılışında iştirak etmişdir. Bu sırada olan obyektlərdən Diaqnostika mərkəzinin, Olimpiya İdman Kompleksinin, «Gilan» konserv zavodunun, Heydər Əliyev Konqres Mərkəzinin açılışında iştirak etmişdir. Qəbələ rayonuna bu ilin fevral və avqust aylarında səfərləri zamanı heyvandarlıq komplekslərinin, üzüm emalı zavodunun, atıcılıq kompleksinin, ümumiyyətlə 10-a qədər belə obyektlərin açılışını etmiş, bir sıra tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

(Ardı 7-ci səhifədə).